**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMI**

**№** 78          **"**20**"** May **2026-cı il**

**Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti yanında Korrupsiya risklərinin idarə edilməsi üzrə monitorinq qrupunun yaradılması haqqında**

Azərbaycan Respublikası Prezidentinin 04 aprel 2022-ci il tarixli 3199 nömrəli Sərəncamı ilə "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022—2026-cı illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Həmin Milli Fəaliyyət Planında yerli icra hakimiyyəti orqanlarının üzərinə korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması ilə bağlı vəzifələr qoyulmuşdur.

"Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022—2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icra edilməsi və Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında və onun tabeli qurumlarında (icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri, yerli icra hakimiyyəti başçısının yanında olan orqanlar) korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması ilə bağlı monitorinq qrupunun yaradılmasına zərurət yaranmışdır.

Yuxarıda qeyd olunanları, "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın 2.17-ci bəndini və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.15.1-ci və 6.8-ci bəndlərini rəhbər tutaraq,

**QƏRARA ALIRAM:**

**1.** "Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti yanında Korrupsiya risklərinin idarə edilməsi üzrə monitorinq qrupu" yaradılsın.

**2.** Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti yanında Korrupsiya risklərinin idarə edilməsi üzrə monitorinq qrupunun tərkibi aşağıdakı qaydada təsdiq edilsin:

**Monitorinq qrupunun sədri:**

| | |
|---|---|
| Babayev Hacıbaba Adil oğlu | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini |

**Monitorinq qrupunun kordinatoru:**

| | |
|---|---|
| Eyvazova Vüsalə Yaşar qızı | Hüquq və kadr məsələləri sektorunun müdiri |

**Monitorinq qrupunun üzvləri:**

| | |
|---|---|
| Süleymanova Sevinc Məhəmməd qızı | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini – Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsinin müdiri |
| Əliyev Sabir Qələndər oğlu | Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsinin müdiri |
| Həsənov Rauf Arif oğlu | Ərazi-təşkilat məsələləri sektoru, şöbə müdirinin müavini-sektor müdiri |
| Əliyev Vüsal Fikrət oğlu | Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektoru, şöbə müdirinin müavini-sektor müdiri |
| Musayev Şahin Möhtərəm oğlu | Memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı sektoru, şöbə müdirinin müavini-sektor müdiri (baş memar) |

**3.** Monitorinq qrupunun fəaliyyətinə nəzarətin həyata keçirilməsini öz üzərimdə saxlayıram.

**4.** Sərəncamın surətinin monitorinq qrupunun üzvlərinə təqdim olunmasının təmin edilməsi Aparatın Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənəd dövriyyəsi, vətəndaş müraciətləri**
**və inzibati işlər şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN